*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 10 iyun 2017-ci il № 44 (2161) Qiyməti 25 qəpik


*"Ən yaxşı artilleriya divizionu"*

# Təlimlər şəxsi heyətin döyüş ruhunu daha da artırır



*Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, hərbi hissələrdə və əlahiddə bölmələrdə şəxsi heyətə döyüş və atəş hazırlığı dərsləri keçirilir. Həmçinin şəxsi heyətin döyüş təcrübəsinin artırılması, hər an döyüşə hazır olması üçün irimiqyaslı taktiki təlimlər geniş vüsət alıb. Ordumuzun gücünün, qüdrətinin artırılmasına xidmət edən belə təlimlərdən birində - "Silahlı Qüvvələrdə ən yaxşı artilleriya divizionu" adı uğrunda keçirilən təlimdə artilleriyaçılar öz döyüş bacarıqlarını nümayiş etdiriblər.*

Sözügedən təlimdə iştirak edən heyətlərdən biri "N" hərbi hissəsini layiqincə təmsil edib. Heyətin hər bir üzvü vəzifəsinin öhdəsindən bacarıqla gələrək hədəflərin dəqiq məhv edilməsində xüsusi bacarıq nümayiş etdirib. Mayor Mehman Ədilovun nəzarəti altında şəxsi heyətin hazırlığını müşahidə edirik.

Artıq təlim başlamaq üzrədir. Atəş mövqeyindən arxada maşınlar və şəxsi heyət düzüldü. Əvvəlcə təlim material bazalarına baxış keçirildi. Daha sonra şəxsi heyətə döyüş əmri çatdırıldı və divizion komandirinin komandası altında heyətlər maşınların yanına yığıldı. Bayraq vasitəsilə "işə sal" komandası verildi və maşınlar hərəkətə başladı. Şəxsi heyətin çevik hərəkətlərini, bacarığını, müasir və saz vəziyyətdə olan texnikaları izlədikcə Azərbaycan Ordusunun gücünün və qüdrətinin şahidi olursan.

(Ardı 3-cü səhifədə)

## Azərbaycan sülhməramlılarının peşəkarlığı yüksək qiymətləndirilib

Əfqanıstan İslam Respublikasında NATO-nun həyata keçirdiyi "Qətiyyətli Dəstək" missiyası çərçivəsində Həmid Kərzai adına Kabul Beynəlxalq Hava Limanının (HİKA) təhlükəsizliyini təmin edən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının nümunəvi xidməti və peşəkarlığı yüksək qiymətləndirilib.

Xidməti vəzifələrini yerinə yetirərkən fərqlənən Azərbaycan sülhməramlıları barədə HKİA Qarnizonu komandanı briqada generalı Murat Selçuk Çol tərəfindən Müdafiə naziri general-polkovnik Zakir Həsənova minnətdarlıq məktubu ünvanlanıb.

Məktubda deyilir:

"Əfqanıstan İslam Respublikasında NATO-nun həyata keçirdiyi "Qətiyyətli Dəstək" missiyası çərçivəsində Həmid Kərzai adına Beynəlxalq Hava Limanının ərazisində xidmət keçən Azərbaycan sülhməramlılarının nümayiş etdirdiyi nümunəvi xidmətin səviyyəsindən böyük bir məmnuniyyət duyduğumu ifadə etmək istəyirəm.

Sizə Həmid Kərzai adına Beynəlxalq Hava Limanının hərbi hissəsində xidmət edən 52 ölkənin 5.000 nəfərədək hərbi qulluqçu və mülki işçisi adından təşəkkürümü bildirirəm.

Sayıq və intizamlı olmaqla yanaşı, göstərdikləri səylər nəticəsində Azərbaycan hərbçiləri təhlükəsizliyin təmin olunmasına, eləcə də qüvvələrin mühafizəsi qrupunun müvəffəqiyyət qazanmasına böyük töhfə verib. Azərbaycan sülhməramlıları sahib olduqları güclü dəyərlər və böyük məsuliyyət hissi ilə Türkiyə və digər beynəlxalq nümayəndələrlə dostluq münasibətləri qurublar.

Azərbaycan bölüyünün bütün şəxsi heyəti ölkəsini yüksək səviyyədə nümunəvi şəkildə təmsil etməklə qazandıqları nailiyyətləri daha da önə çıxarmağı bacarıblar".

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

AZƏRBAYCAN ORDUSU

*15 İyun - Milli Qurtuluş Günüdür*

# Müasir Azərbaycan Ordusunun qurucusu

Müstəqil Azərbaycan dövlətinin qurucusu ulu öndər Heydər Əliyevin fəaliyyətinin tariximizdə müstəsna yeri vardır.

Tarixin çətin sınağı qarşısında qalan bir xalqı həmin sınaqdan alnıaçıq çıxara biləcək ən vacib amil o xalqın həmin şəraitdə nə qədər müdrik qərar qəbul etməsidir. 1993-cü ilin iyun günlərində, yəni, Azərbaycan xalqı taleyinin ən çətin, ağır dönəmində, yenicə bərpa edilmiş müstəqilliyimizin müqəddəratının həll olunduğu bir vaxtda son dərəcə düzgün qərar qəbul etdi: dünya şöhrətli siyasi xadimi - Heydər Əliyevi respublika rəhbərliyinə dəvət etdi.

24 il bundan öncə ulu öndər Heydər Əliyevin titanik siyasi kursu ətrafında sıx birləşən və Milli Qurtuluşa, dövlət müstəqilliyinin xilasına nail olan Azərbaycan xalqı sosial firavanlığa, xoşbəxt gələcəyə aparan davamlı inkişaf yoluna səfərbər olundu. Məhz 1993-cü ildən başlayaraq dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində görülən işlər və atılan məqsədyönlü addımlar Azərbaycanın bugünkü uğurları üçün ən etibarlı təməl oldu. Azərbaycanın suveren dövlət kimi mövcud olması tarixi zərurətdən irəli gələn hadisə idisə, müstəqilliyimizin əbədiliyi və dönməzliyi ümummilli lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır.



Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsi, beynəlxalq nüfuzunun artması, respublika iqtisadiyyatının dayanıqlı inkişafının təmin olunması, xalqın rifah halının mütəmadi olaraq yüksəlməsi və digər nailiyyətlər silsiləsi məhz dahi rəhbər Heydər Əliyevin xalqın çağırışı ilə Azərbaycana rəhbərliyə qayıdışından başlanır.

Müdrik şəxsiyyət olan Heydər Əliyev dövlət müstəqilliyimizi əbədi və dönməz etdi. Bütün həyatını xalqına, onun xoşbəxt gələcəyinin qurulmasına həsr edən Ümummilli Liderimiz Azərbaycanın müasir qüdrətli ordusu üçün də böyük işlər gördü, ordu quruculuğuna, ölkənin hərbi kadr potensialının gücləndirilməsinə diqqət yetirdi. Heç də təsadüfi deyildir ki, Ulu Öndər özünün son kütləvi görüşlərindən birini də məhz hərbi liseyin kursantları ilə keçirmişdi.

Hələ Sovet dönəmində respublika rəhbərliyinə gəldiyi ilk gündən Ulu Öndər dövlət siyasətinin digər sahələri kimi, gənclərin vətənpərvərlik tərbiyəsini də önə çəkib. Məhz müdrik siyasətçi Heydər Əliyevin təşəbbüsü ilə ötən əsrin 70-ci illərində Bakıda xüsusiləşdirilmiş hərbi təmayüllü orta internat məktəb (indiki Cəmşid Naxçıvanski adına Hərbi Lisey) yaradıldı. Bu gün ordumuzun zabit heyətinin, demək olar ki, əsasını məhz həmin məktəbin məzunları təşkil edir.

Ulu Öndərin dahiyanə idarəçiliyi, güclü strateji bacarığı sayəsində ordu quruculuğunda qısa vaxtda böyük işlər görüldü. Silahlı Qüvvələrimiz dünya standartlarına uyğun olaraq vahid komandanlıqdan idarə olunan mütəşəkkil hərbi struktura çevrildi. Ordunun maddi təminatı və təchizatı xeyli gücləndirildi. Ümummilli Liderin adını daşıyan Azərbaycan Ali Hərbi Məktəbi də müstəqillik dövründə yenidən quruldu. Təkcə Azərbaycanın deyil, xarici ölkələrin hərbi məktəblərində də Silahlı Qüvvələrimiz üçün yüzlərlə təcrübəli mütəxəssis hazırlandı. Bu gün Azərbaycan Ordusunda xidmət edən zabitlərimizin əksəriyyəti məhz ulu öndər Heydər Əliyevin qayğısı sayəsində Türkiyənin, Rusiyanın, Ukraynanın, Pakistanın, Çinin, İtaliyanın, Rumıniyanın və digər ölkələrin akademiyalarında təhsil alıblar.

Ümummilli Lider 1998-ci il 13 mart tarixində C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının açılması haqqında sərəncam imzaladı. Bu gün həmin təhsil müəssisəsi Heydər Əliyev adına Hərbi Lisey kimi fəaliyyətini davam etdirir.

Dahi rəhbərin 1998-ci il mayın 22-də imzaladığı fərmanla 1918-ci ildə Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün, yəni 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan edildi.

Bir il sonra 1999-cu il fevralın 20-də Azərbaycanda Silahlı Qüvvələrin Hərbi Akademiyasının yaradılması hərb tariximizdə əlamətdar hadisə oldu.

2003-cü il aprelin 21-də Respublika sarayında C.Naxçıvanski adına Hərbi Liseyin 30 illik yubileyinə həsr olunmuş mərasimdə respublika Prezidenti, Ali Baş Komandan Heydər Əliyev fəxrlə bəyan etdi ki, mən C.Naxçıvanski adına məktəbi yaradarkən həsrətində olduğum arzuma çatmışam, ona görə özümü çox xoşbəxt hesab edirəm.

2003-cü il iyunun 26-da doğma ordumuzun yaradılmasının 85 illiyi ilə əlaqədar müdrik rəhbər Heydər Əliyev Silahlı Qüvvələrin şəxsi heyətinə müraciətlə deyib: "Azərbaycanın güclü ordusu bu gün də, sabah da, 10 il, 100 il bundan sonra da lazımdır. Azərbaycan Ordusu, onun Silahlı Qüvvələri böyük gələcəyə baxmalıdır. Böyük gələcəyin təminatçısı isə yalnız güclü, sarsılmaz ordu ola bilər".

Bəli, bu gün Azərbaycanın güclü, sarsılmaz ordusu var. Ümummilli lider Heydər Əliyevin siyasi kursunun davamçısı, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında ordumuzun müasir standartlara tam uyğunlaşdırılması məqsədilə gərgin və səmərəli iş aparılıb və nəticədə Azərbaycan Ordusu regionun ən qüdrətli ordusuna çevrilib.

Bu gün qətiyyətlə deyə bilərik ki, tək silahlanma sahəsində deyil, mənəvi-psixoloji hazırlıq cəhətdən də fərqlənən ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Ötən ilin aprelində ordumuzun əks-hücum əməliyyatı zamanı düşmənə sarsıdıcı zərbələri də dediklərimizin bir daha təsdiqidir.

Ali Baş Komandan İlham Əliyev aprel döyüşlərinin əhəmiyyətini qeyd edərək bildirir ki, aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın ordumuzun gücünü göstərən qələbədir. "Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun, bərpa edəcəkdir."

**"Azərbaycan Ordusu"**



*İyunun 7-də Müdafiə Nazirliyinin rəhbərliyi yeni istifadəyə verilən Snayper hazırlığı mərkəzində olub.*

# Snayper hazırlığı mərkəzi istifadəyə verilib

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, mərkəzdə snayperlərin səhra bacarıqlarının təkmilləşdirilməsi məqsədilə real döyüş şəraitinə uyğun lazımi infrastrukturun yaradılması barədə məruzə edilib.

İdarəetmə məntəqəsindən praktiki atış və digər hazırlıq çalışmalarını izləyən Müdafiə naziri snayperlərin döyüş vərdişlərinin artırılması ilə bağlı tapşırıqlar verib.



# Müdafiə Nazirliyinin rəhbərliyi HHQ-nin Təlim Mərkəzində olub



*İyunun 7-də Müdafiə Nazirliyinin rəhbərliyi Hərbi Hava Qüvvələrinin Təlim Mərkəzlərindən birində olub.*

Müdafiə naziri general-polkovnik Zakir Həsənov pilot və texniki heyətlə görüşüb, təlim mərkəzindəki mütəxəssislərin hazırlığı ilə maraqlanıb, aerodrom-texniki avadanlıqlar, trenajor və simulyasiya siniflərinə baxış keçirib.



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Müdafiə naziri təlim-məşq hazırlığının müasir avadanlıqların tətbiqi ilə keçirilməsi və heyətlərin uçuş təcrübəsinin artırılması ilə bağlı Hərbi Hava Qüvvələrinin komandanlığına tapşırıqlar verib.

# Təlimlər şəxsi heyətin döyüş ruhunu daha da artırır

(Əvvəli 1-ci səhifədə)

Batareyanın baş zabitləri heyət komandirlərinə son tapşırıqlarını çatdırırlar. Artilleriyaçı komandirlər də bayraqlarını qaldıraraq hazırlıq haqqında məruzə edirlər. Növbəti mərhələdə əvvəlcədən hazırlanmış planlı hədəflərə tapşırıqlar icra olundu. Bu zaman divizion komandiri tərəfindən atəş mövqeyinin yerdəyişməsi komandası verildi. Bölmələr təyin olunmuş vaxtda öz yerlərini tutdular. Yeni hədəflər aşkar olundu və tapşırıqlar yerinə yetirildi. Həmçinin döyüş maşın komandirlərindən və ixtisasçılardan fərdi normativlər götürüldü. Sonda divizion komandiri yekun keçirərək bölmələrin döyüş hazırlığını və qarşılıqlı fəaliyyətini yüksək qiymətləndirdi: "Keçirilən bu təlimlər şəxsi heyətin döyüş qabiliyyətinin güclənməsində əhəmiyyətli rol oynayır. Gənc artilleriyaçılar yüksək bacarıq nümayiş etdirdilər. Həm fərdi normativlər, həm də komanda şəklində tapşırıqların yerinə yetirilməsi zamanı peşəkarlıq aşkar edildi. Ən yaxşısını seçmək çox çətindir. Çünki hər birinin yüksək bacarıq nümayiş etdirdiyinin şahidi oldunuz. Bu təlimdə baş leytenant Elşən Veysəllinin rəhbərlik etdiyi batareya cüzi fərqlə digərlərindən daha yaxşı nəticə göstərdi", - zabit deyir.

Təlimdə yüksək bacarıq göstərmiş həmin bölmənin heyəti ilə tanış oluram. Baş leytenant Elşən Veysəlli 2013-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunu olub.

"Heyətimiz təlim zamanı bütün normativləri vaxtında və dəqiq yerinə yetirdi. Verilən tapşırıqların öhdəsindən bacarıqla gəldik. Həm təyin olunmuş yerdə atəş mövqeyinin tutulmasında, həm də texnikanın döyüşə hazır vəziyyətə gətirilməsində peşəkarlıq göstərdik. Şəxsi heyətin döyüş hazırlığı ilə yanaşı, mənəvi-psixoloji ruhu da vəzifələrinin öhdəsindən daha bacarıqla gəlmələrinə kömək etdi".

Komandir şəxsi heyətdən danışarkən gözlərindəki qürur hiss edirdim. Zəhmətimiz boşa getməmişdi. Hər kəs komandirlərinin öyrətdiyi bilikləri təlim meydanında layiqincə nümayiş etdirmişdi. Komandir üçün bundan böyük sevinc ola bilməzdi. Öz bacarıqları ilə komandirlərinə sevinc yaşadan əsgərləri mən də tanıyıram.

Təlim zamanı komandaları şəxsi heyətə məharətlə çatdıran, çevik hərəkətlərindən bacarıqlı əsgər olduğu hiss edilən manqa komandiri kiçik çavuş Aqşin Əlibəyli 1 ildən artıqdır ki, xidmət edir. Əsgəri xidmətə Oğuz rayonundan çağırılıb. "Belə təlimlərin keçirilməsi bizə həm təcrübə qazandırır, həm də döyüş qabiliyyətimizi artırır. Komandirimiz tərəfindən keçirilən döyüş hazırlığı dərslərində öyrəndiyimiz nəzəri bilikləri praktiki olaraq həyata keçirmək, döyüş meydanında uğur qazanmaq üçün imkan əldə edirik. Artıq döyüşə hazırlıqlı əsgərlərik, düşməni məhv etmək üçün əmr gözləyirik", - əsgər Əlibəyli deyir.



Hədəfləri dəqiq nişan alan baş tuşlayıcı əsgər Seymur Ağasalamlı isə 8 aydır ordu sıralarındadır. Əsgəri xidmətə Qəbələ rayonundan çağırılıb. Təlim zamanı Seymurun nişangah qurğusundan necə ustalıqla istifadə etdiyinin şahidi olmuşdum.

- Hədəflərin dəqiq nişan alınmasında öhdəmə böyük məsuliyyət düşür, - əsgər deyir. - Lakin xidmətim dövründə öyrəndiyim biliklər və qazandığım təcrübə bu vəzifənin öhdəsindən layiqincə gəlməyimə imkan verir. Vəzifəmi yaxşı mənimsəmişəm. Hərbi xidmətim dövründə gördüyüm diqqət və qayğı, bizim üçün yaradılan yüksək məişət şəraiti uğurlu xidmətimiz üçün zəmin yaradır. Belə şəraitdə xidmət hər birimizə döyüş ruhu aşılayır.

Heyət nəfərlərindən əsgərlər Ərşad Hümbətov və Həsən Papayevin hər biri 12 aydır xidmət edir. Təlimdə onlar da fərqləndilər.

- Təlimdə yüksək bacarıq göstərməyimizə görə ən birinci komandirimizə borcluyuq. Daim bizim qayğımıza qalır, bilik və bacarıqlarını bizdən əsirgəmir. Hər birimizin bacarıqlı döyüşçü kimi yetişməsində böyük zəhməti var. Döyüş hazırlığı ilə yanaşı, vətənpərvərlik hisslərinin aşılanması istiqamətində də söhbətlər aparır. Milli Qəhrəmanlarımızdan tez-tez söz açaraq onların adına layiq xidmət etməyi tövsiyə edir, - deyirlər.

Əsgər Ziya Abdullayev baş sürücüdür. Təlim zamanı yüksək peşəkarlıq nümayiş etdirirdi. Düzülüş yerindən atəş mövqeyinə hərəkət və rayonların yerdəyişməsi zamanı maşını ustalıqla idarə etdi. Xidmətini başa vurmağa hazırlaşan əsgər ordu həyatı haqqında fikirlərini bölüşür.

- Bu təlimdə uğurlu nəticə göstərdiyim üçün çox sevincliyəm. Başda batareya komandirimiz olmaqla bütün heyətimizi təbrik edirəm. Bir ay sonra onların arasından ayrılacağım üçün kədərlənirəm. Əsgəri xidmətim ömrümün ən mənalı günləri kimi yadda qalacaq. Çünki biz burada müqəddəs vəzifəni yerinə yetiririk - Vətənə xidmət edirik. Həmçinin bir çox üstün keyfiyyətlər qazanırıq. Xidmətim dövründə döyüş maşınları və atıcı silahlar haqqında biliklərə yiyələndim. Möhkəm dostlar qazandım. Cəmiyyətə yararlı vətəndaş kimi yetişməyimdə əsgəri xidmətimin əhəmiyyətini başa düşürəm.

**Leytenant Mahmud MÖHBALIYEV, "Azərbaycan Ordusu", fotolar Coşqun CƏFƏROVUNDUR**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Monitorinq baş tutdu

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, iyunun 7-də Tovuz rayonunun Əlibəyli kəndi yaxınlığından keçən Ermənistan və Azərbaycan dövlət sərhədində keçirilən monitorinq insidentsiz başa çatıb.

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***9 iyun 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 130 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan, Voskevan kəndlərində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber, Paravakar kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Kəmərli, Qaymaqlı, Fərəhli, Quşçu Ayrım, Məzəm, Cəfərli kəndlərində, Berd rayonunun Çinari və Ayqedzor kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam və Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Yarımca, Ağdam rayonunun Baş Qərvənd, Qaraqaşlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Qorqan və Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

*Döyüş hazırlığı*

# Tankçılarımızın da döyüş əzmi yüksəkdir

*Səfərimiz Azərbaycanın şimal-qərb hissəsində yerləşən günü-gündən müasirləşən rayonlardan biridir. Bakıdan çox uzaqda yerləşən rayonda abadlıq və təmir-tikinti işləri aparılıb. Əlverişli təbii-coğrafi mövqedə yerləşən rayon təkcə Azərbaycanda deyil, bütövlükdə Cənubi Qafqazda ən qədim insan məskənlərindən biridir.*



Həmişə eşitmişəm ki, bu rayonun maraqlı təbiəti var. Doğrudan da, eşitdiklərim gerçək imiş. Səhər vaxtı sıx duman, narın yağış müşayiət olunurdusa, günortaya yaxın hər tərəf günəş şüalarının təsiri altında işıldayırdı.

Qərargahda şəxsi heyətin mənəvi-psixoloji hazırlığına cavabdeh zabit polkovnik-leytenant Elşən Yusifovla görüşdük. Zabit son illər dövlət rəhbərliyi tərəfindən Silahlı Qüvvələrə göstərilən diqqət və qayğıdan ağızdolusu danışdı.

- Doğrudan da, son zamanlar Azərbaycanda ordu quruculuğu inkişaf edir. Hazırda müasir silah və hərbi texnika ilə təchiz edilmiş, yüksək döyüş hazırlığına malik ordumuz var. Təkcə onu vurğulamaq yetər ki, Ali Baş Komandan İlham Əliyev ordu quruculuğu məsələsini dövlətin əsas prioriteti elan edib. Bunun nəticəsidir ki, ordumuz qısa müddətdə böyük inkişaf yolu keçib, - deyə zabit bildirdi.

Tankçılarımızın yanına can atırıq. Taqım komandiri leytenant Elşən Şahverdiyev texnikalara qulluq edildiyini bildirdi, vaxt itirmədən onunla tankların yanına gedirik. Söhbətimizdən məlum olur ki, zabit 2016-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib. Bir ilə yaxındır bu hərbi hissədə tank taqım komandiri kimi xidmət edir. Bu müddət ərzində öz nümunəvi xidməti ilə komandanlığın rəğbətini qazanıb. İstər bölmə komandiri, istərsə də hərbi hissə komandanlığı gənc zabitdən öz razılıqlarını bildirdilər.

Zirehli texnikanı və onun qayğısına qalan şəxsi heyəti gördükdə ümummilli liderimiz Heydər Əliyevin dediyi "Orduda, hər bir hərbi hissədə yuxarıdan aşağıyadək qanun-qayda, nizam-intizam, yüksək tələbkarlıq olmalıdır" sözlərini xatırlayıram. Leytenant Elşən Şahverdiyevlə söhbətimiz də şəxsi heyət və hərbi texnika haqqındadır. Taqım komandiri bildirir ki, bu gün ön xətdə xidmət edən şəxsi heyətin bütün qayğıları ordu rəhbərliyinin diqqət mərkəzindədir.

- Şəxsi heyətin məişətinə, qidalanmasına ciddi önəm verilir, - deyir taqım komandiri. - Hərbi hissəmizdə peşəkar döyüşçü kimi yetişmək üçün hər bir şərait yaradılıb. Təcrübəli tank heyətlərimiz var.

Taqım komandirinə görə, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı yüksək səviyyədədir. Hər kəs Vətənimizin müdafiəsində iştirak etməyin mənəvi məsuliyyətini dərindən dərk edir və bu vəzifəni yerinə yetirməsindən qürur duyur.

Yaradılan yüksək şəraitə görə razılığı tankçılarımızın dilindən də eşidirəm. Tovuz rayonundan olan tuşlayıcı-operator müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Rafael Mirzəliyev söhbətimiz zamanı deyir ki, indi əşya-ərzaq təminatı baxımından heç bir çatışmazlıq yoxdur. "İki ildən çoxdur ki, bu hərbi hissədə xidmət edirəm. Müddətli həqiqi hərbi xidmətimi başa vurduqdan sonra, taleyimi yenidən ordu həyatına bağladım və torpaqlarımızı azad edənədək bu yoldan dönməyəcəyəm. Tuşlayıcı-operator kimi döyüşlərdə düşməni məhv etməyə hazıram. Keçirilən təlimlərdə bölməmiz də fəal iştirak edib, tək məqsədimiz var - döyüş meydanından qalib çıxmaq. Bu səbəbdən bölməmiz təlimlərdə həmişə yüksək nailiyyətlər əldə edir. Hər an döyüşə hazırıq. Aprel döyüşlərində qazanılan qələbəni davam etdirmək və işğal altında olan torpaqlarımızı azad etmək arzusu ilə yaşayırıq."

Növbəti həmsöhbətim mexanik-sürücü vəzifəsində xidmət edən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Beyrək Aydəmirovdur. O, əsgərliyini 2008-2010-cu illərdə sülhməramlı qüvvələrdə həyata keçirib. Şabran rayonundan olan tankçı artıq dörd ilə yaxındır bu hərbi hissədə xidmət edir. Onunla söhbət etdikcə "Kitabi-Dədə Qorqud" dastanındakı Beyrək obrazı bir anlığa gözümün önündə canlandı. Baybörənin oğlu olan Bamsı Beyrək - gənc oğuz qəhrəmanlarından biri olub. Salur Qazanın inandığı, ən güvəndiyi adamlarından biri olan Beyrək hələ Dədə Qorqud ona bu adı verməmişdən əvvəl Bamsı ləqəbi daşıyıb. Qəhrəmanlıq göstərdikdən sonra ona Beyrək adı verilib. İnanırıq ki, döyüş meydanında Beyrək Aydəmirov da dəmir atının belində hünər göstərəcək, öz qəhrəmanlığı ilə dillərə dastan olacaq.

O, söhbətimiz zamanı da qeyd etdi ki, işğal altındakı torpaqlarımızı azad etməyə, qəhrəmanlığını düşmənə sübut etməyə tam hazırdır.

- Yuxarı komandanlığın orduya göstərdiyi diqqət və qayğının nəticəsidir ki, bu gün ordumuz dünya orduları sırasında yer alır. Hər cəhətdən təmin olunan ordumuzun şəxsi heyəti yalnız bir amal haqqında düşünür - Qarabağımızı azad edib, ermənilərin işgəncə verdikləri qocaların, qadınların, uşaqların qisasını almaq. Düzdür, aprel döyüşlərində düşmənə lazım olan cavabın bir hissəsini verdik. Amma bu hələ son deyil. Hamımız Ali Baş Komandanın "İrəli" komandasını səbirsizliklə gözləyirik.

Tankçılarımızla söhbət etdikdən sonra bir daha əmin oldum ki, onlar da düşmənə qarşı əzmlə mübarizə aparmağa hazırdırlar. Hər kəsə xidmətlərində uğurlar arzulayıb, xoş təəssüratla hərbi hissədən ayrılırıq.

**Baş leytenant Məhəmməd NƏSİRLİ, "Azərbaycan Ordusu", foto C.CƏFƏROVUNDUR**

*Gənc zabitlərimiz*

# "Əsgərlərimizlə qürurlanıram"

*Bütün peşələrdən üstün sayılan zabit peşəsini seçmək, Vətənə, xalqa nümunəvi xidmət etmək əsl vətənpərvərlikdir. Zabit Şamxal Abışov da nümunəvi zabitlərdəndir. Vətənə, xalqa xidməti həmişə uca tutan, həyatını orduya həsr edən zabit dağlar diyarının yetirməsidir. Onun da uşaqlıq, yeniyetməlik çağları ağrılı-acılı illərə düşüb. Yaşıdları kimi müharibə məhrumiyyətlərini erkən yaşlarından hiss edib.*

Orta məktəb həyatı ona çox şey verib. Vətənimizin tarixindən, ölkəmizə düşmən tərəfindən törədilən böyük xəyanətlərdən, faciələrdən xəbərdar olub. Hərb tariximizə həmişə böyük maraq göstərib, sərkərdələrin həyatlarını, döyüş yollarını öyrənib. Vətən, torpaq, azadlıq uğrunda şəhid olanların xatirəsinə ehtiram göstərib. Qəhrəman oğulların davamçısı olacağına söz verib.

Uşaq yaşlarından onda zabit peşəsinə böyük maraq yaranıb. Vətən keşiyində dayanan hərbçilərə rəğbətlə yanaşıb. Beləliklə, Şamxalın orta məktəb həyatını hərbi həyat əvəz edib. O, görkəmli hərb xadimi Cəmşid Naxçıvanskinin adını daşıyan Hərbi Liseyə daxil olub. Arzuladığı həyata qovuşduğu o günlər yaddaşına əbədi yazılıb. Nümunəvi kursant kimi tanınıb. Liseyi müvəffəqiyyətlə başa vuraraq, ümummilli lider Heydər Əliyevin adını daşıyan Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. Hərbi məktəbi 2012-ci ildə bitirib. Təlim və Tədris Mərkəzində təkmilləşdirmə kursunu müvəffəqiyyətlə başa vurub. Həmin gün onun həyatının dönüş nöqtəsinə çevrilib.

Şamxal zabit kimi xidmətə Silahlı Qüvvələrdə önəmli yer tutan hərbi hissələrdən birində başlayıb. Ulu öndər Heydər Əliyevin xeyir-duası ilə həyata vəsiqə alan hərbi hissənin keçdiyi döyüş yolu, dövlətçiliyin, müstəqilliyin qorunmasında şəxsi heyətin xidmətləri yüksək qiymətləndirilib. Buna görə də Şamxal göstərilən etimadı həmişə doğrultmağa çalışıb. Tabeliyindəki şəxsi heyəti məsuliyyətlə xidmət etməyə ruhlandırıb.

Gənc zabit xidmətini cəbhə bölgəsində davam etdirir. Bölük komandiri kimi vəzifəsinin öhdəsindən bacarıqla gəlir.

Onunla ön xətdə görüşdük. Bölmədə səliqə-sahman, nizam-intizam diqqəti cəlb edir. Şəxsi heyət günün nizam qaydalarına uyğun xidmət aparır. Yüksək döyüş hazırlığına malik olan bölmə qarşıya qoyulan döyüş tapşırıqlarına müntəzəm əməl edir. Bölük komandiri bildirir ki, döyüş və mənəvi-psixoloji hazırlıq dərslərinə xüsusi önəm verilir.

Son illərdə həyata keçirilən islahatlar nümunəvi xidmət üçün hərtərəfli şərait yaradıb. Ordu rəhbərliyinin cəbhə bölgələrinə tez-tez səfərləri, diqqət və qayğısı şəxsi heyətin döyüş ruhunu, vətənpərvərlik hissini daha da artırıb. Şəxsi heyətin hər bir üzvünün məqsədi işğal altında olan torpaqlarımızın azad edilməsində iştirak etməkdir.



Əsgərlər Kənan Dəmirov, Seymur Muxtarov, Tural Hüseynzadə və başqaları intizamlı əsgərlərdir. Zabit Şamxal Abışov bildirir ki, komandir əsgərləri ilə həmişə fəxr etməlidir. Onları qələbəyə ruhlandırmalı və nümunə göstərməlidir. Azərbaycan Respublikasının Milli Qəhrəmanları Qasım Rzayev, Naiq Yusifov, Çingiz Qurbanov kimi qəhrəmanlar yetirən hərbi hissədə xidmət etməyin qürurverici olduğunu deyən zabit qəhrəmanların davamçıları olacaqlarını, ölkəmizin ərazi bütövlüyünü təmin edəcəklərini deyir:

- Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, bizim başqalarının torpaqlarında gözümüz yoxdur. Biz tarixi torpaqlarımızı düşməndən azad etmək əzmindəyik. Nəyin bahasına olursa-olsun, torpaqlarımızı azad etməklə, ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyik.

Baş leytenant Şamxal Abışovun xidmətləri komandanlıq tərəfindən də yüksək qiymətləndirilib. Fəxri fərmanlara, mükafatlara layiq görülüb. Silahlı Qüvvələrin yubiley medalı ilə təltif olunub.

Hər zabit tabeliyində olan əsgərlərinə şəxsi nümunədir. Əsgər zabitin vətənpərvərliyindən də öyrənir, hərbi biliklərindən də. Belə əsgərlərin döyüş ruhu, əlbəttə, yüksək olacaq. Zabit tabeliyində olan əsgərlər haqqında danışanda "Mən əsgərlərimlə qürur duyuram!" - deyirsə, bu nümunəvi xidmətin nəticəsidir...

**Mübariz MUSAYEV, "Azərbaycan Ordusu"**

# Ordu idmançılarının uğurları



*Ordu idmançılarının ölkəmizdə və beynəlxalq arenalarda qazandığı qələbələrə hər birimiz sevinir, bu uğurların davamlı olmasını arzulayırıq. Bu günlərdə Mərkəzi Ordu İdman Klubu futbolçularının xoş sorağını Naxçıvandan aldıq. Ümummilli Liderimizin xatirəsinə həsr olunmuş ənənəvi "Heydər Əliyev Kuboku" uğrunda keçirilmiş turnirdə MOİK müvəffəqiyyətlə çıxış edərək qalib adını qazanıb.*

Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi və Peşəkar Futbol Liqasının təşkilatçılığı ilə keçirilən yarışda 4 peşəkar komanda - "Araz Naxçıvan", MOİK, "Mil-Muğan" və "Zaqatala" iştirak edirdilər. Hər komanda yarışda üç görüş keçirib. Həlledici qarşılaşmada MOİK və "Araz Naxçıvan" komandası ilə üz-üzə gəlib və Ruslan Nəsirlinin vurduğu qol ordu idmançılarına qələbə gətirib. Beləliklə, "hərbçilər" rəqiblərilə qarşılaşmalarda iki qələbə və bir heç-heçə ilə 7 xal toplayaraq turnirin kubokuna yiyələniblər.

Yarışın yekununda, həmçinin bir neçə nominasiya üzrə turnirin ən yaxşı oyunçuları da müəyyən edilib. Xoşdur ki, MOİK-in iki futbolçusu - qolkiperi Əli Həsənli ən yaxşı qapıçı, hücumçu Rəhman Musayev isə ən yaxşı bombardir seçilib. Turnirin qızıl medallarını və Heydər Əliyev Kubokunu qalibə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov təqdim edib. Digər komandaların üzvləri ilə də görüşən Vasif Talıbov onlara gələcək yarışlarda uğurlar arzulayıb.

Xatırladaq ki, Heydər Əliyev Kuboku uğrunda ötən il keçirilmiş turnirdə MOİK gümüş medala layiq görülmüşdü.

- Hər şeydən öncə onu qeyd edim ki, Ulu Öndərimizin xatirəsinə həsr edilmiş yarış yüksək səviyyədə təşkil edilmişdi, - bizimlə söhbətində Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman Klubunun rəisi polkovnik-leytenant Rəşad Quliyev öz təəssüratlarını bölüşdü. - Bizim üçün sevindirici haldır ki, ordu futbolçuları belə bir mötəbər yarışda qalib adını qazandı. Həlledici qarşılaşmanı izləmək üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov stadiona gəlmişdi və komandamıza mükafatı da o təqdim etmişdi. Ona görə futbolçularımız bu qədim Azərbaycan diyarından olduqca xoş duyğularla qayıdıblar. Hazırda 2017-2018-ci mövsüm çempionatına hazırlaşan klub üçün bu nailiyyət



əlavə stimul oldu. Gələn ildən ənənəvi olan "Heydər Əliyev Kuboku" uğrunda turnir beynəlxalq səviyyədə təşkil ediləcək və digər ölkələrdən də komandalar qatılacaq.

Gələn il Silahlı Qüvvələrimizin yaradılmasının 100-cü ildönümü tamam olur. Qarşımıza məqsəd qoymuşuq və çalışacağıq ki, komandamız Silahlı Qüvvələrimizin yubiley ilində Azərbaycan futbol çempionatının premyer liqasına vəsiqə qazansın və ordumuzu ölkə çempionatında layiqincə təmsil etsin.

Ordu idmançılarının ölkə və beynəlxalq səviyyəli yarışlarda çıxışlarına toxunan MOİK-in rəisi bildirdi ki, Müdafiə Nazirliyini təmsil edən idmançılar bir sıra uğurlara imza atıblar. Hələ də təəssüratları ilə yaşadığımız Bakı-2017 İslam Həmrəyliyi Oyunlarında komanda hesabında fəxri birinci yeri tutmuş Azərbaycan yığmasının qələbəsində ordu idmançılarının da payı, zəhməti var. Onlar bu mötəbər yarışlarda ikisi qızıl, biri gümüş və biri bürünc olmaqla dörd medala yiyələniblər. Azərbaycan millisinin tərkibində iki futbolçumuz İslamiadanın qalibi oldu, yunan-Roma güləşçisi leytenant Rafiq Hüseynov gümüş, onun həmkarı Murad Məmmədov isə bürünc medala sahib çıxdılar.

MOİK-in rəisi polkovnik-leytenant Rəşad Quliyevin sözlərinə görə, hazırda ordu güləşçiləri və taekvondoçuları qarşıdakı beynəlxalq yarışlara hazırlaşırlar. Beynəlxalq Hərbi İdman Şurasının (SİZM) himayəsi ilə sentyabrda Litvada hərbçilər arasında güləş üzrə, oktyabrda isə taekvondo üzrə dünya çempionatları keçiriləcək. İnanırıq ki, bu yarışlarda hərbçi pəhləvanlar ölkəmizi və Silahlı Qüvvələrimizi layiqincə təmsil edəcəklər. Belə hesab etməyə daim əsas var. Ordu taekvondoçuları ölkə çempionatlarında daim uğurla çıxış ediblər. Güləşçilərimiz isə ötən ilin sentyabrında Makedoniyanın paytaxtı Skopye şəhərində keçirilmiş güləş üzrə hərbçilərin 31-ci dünya çempionatında 2 qızıl, 4 gümüş və 3 bürünc olmaqla 9 medal qazanmış, ümumi komanda hesabında 53 xal toplayaraq yarışları ikinci yerdə başa vurmuşdular.

Hərbi idmançıların bu uğurunu yüksək qiymətləndirən Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycanın dünyanın aparıcı idman ölkələri sırasında olduğunu qeyd etmişdi. O bildirmişdi ki, yarışlarda Azərbaycanı təmsil edən hərbi qulluqçular Silahlı Qüvvələrin nümayəndələri kimi Makedoniyada ölkənin bayrağını yüksəltmək və Dövlət himnini səsləndirməklə Azərbaycan əsgərinin döyüş əzmini və qələbə ruhunu bir daha sübut ediblər.

- İdmançılarımız hər dəfə beynəlxalq yarışlarda uğurla çıxış etdikdə Müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən beləcə qəbul edilib, mükafatlandırılıblar, - Mərkəzi Ordu İdman Klubunun rəisi polkovnik-leytenant Rəşad Quliyev bildirdi. - Ordu idmançılarının nəticələri bir daha göstərir ki, Silahlı Qüvvələrdə fiziki hazırlıq və idmana lazımınca diqqət və qayğı göstərilir, belə münasibət onları yeni-yeni uğurlara ruhlandırır.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

*Vətənpərvərlik*

# "Təlimdə tər - döyüşdə zəfər"





Bu günlərdə akademik Zərifə Əliyeva adına Liseydə "Təlimdə tər - döyüşdə zəfər" adlı hərbi idman yarışının yarımfinal və final mərhələləri keçirildi. Liseyin geniş həyəti bayramsayağı bəzədilmişdi. Komanda üzvləri son məşqlərini edirdilər. Dalğa-dalğa ətrafa yayılan şən musiqi sədaları eşidənlərdə xoş təəssürat oyadırdı.

Yarış Dövlət himninin səsləndirilməsi ilə başlandı. Sonra ümummilli liderimiz Heydər Əliyevin və ərazi bütövlüyümüz uğrunda şəhid olanların ruhu bir dəqiqəlik sükutla yad edildi.

Tədbirə dəvət olunmuş qonaqlar və yarış iştirakçıları yerlərini tutduqdan sonra Liseyin çağırışaqədərki hazırlıq fənninin müəllimi Qılman Eyvazov yarışın başlanmasını bildirən fiti səsləndirdi. Yarış iştirakçıları şən musiqi sədaları altında meydana daxil oldular. Yarımfinal mərhələsinə 9 komandadan 4-ü yüksəlib - "103", "Tornado", "Turan" və "İstehkamçı". Qalib bu komandalardan biri olacaqdı. Amma hansı komanda? Bax, bu yarışın gedişində bilinəcəkdi. Mövcud qaydalara uyğun olaraq məktəblilər 3 mərhələdən keçməli idilər. Birinci mərhələdə fiziki hərəkətlər, sıra hazırlığı, avtomat darağına patronların yığılıb boşaldılması, zəhərlənmiş zonanı əleyhiqaz geyinməklə dirsəklə sürünmək, ikinci mərhələdə qalın parçalardan düzəldilmiş tunellərdən keçmək, təkərlərdən hazırlanmış maneələri dəf etmək, sonuncu mərhələdə isə qaçaraq halqalardan tullanmaq və qısa müddət ərzində yaralıya ilk tibbi yardım göstərmək nəzərdə tutulmuşdu.

Məktəblilər tapşırıqları qüsursuz və vaxtında yerinə yetirməyə çalışırdılar. Hərəkətlərə uyğun olaraq musiqi səsi meydanı doldurur. Musiqi sədası məktəbliləri daha da ruhlandırır. Azarkeşlər də boş dayanmır, rəğbət bəslədikləri komandanın idmançılarını qələbəyə ruhlandırırlar. Alqış sədaları dalğa-dalğa ətrafa yayılır.

Yarımfinal mərhələsində iki komanda - "Turan" və "103" komandaları qalib gəlir. Final yarışı məhz bu komandalar arasında keçirilir.

Qısa fasilədən sonra yarışın final mərhələsi başlandı. Yarış meydanı həyəcana bürünmüşdü.

Liseyin direktor müavini Həcər İsrafilova söhbətimizdə bildirdi ki, məktəblilər arasında belə yarışların keçirilməsi onların vətənpərvərlik ruhda böyüməlmərinə müsbət təsir göstərir. Müşahidə edib gördünüz ki, komanda üzvləri avtomat darağına patronları necə də cəldliklə yığıb-boşaltdılar. Münsiflər heyəti də məktəblilərimizin hazırlığını yüksək qiymətləndirdilər. Belə yarışlar şagirdlərdə həm də hərbi vərdişləri formalaşdırır.

... Çox keçmədi ki, "Təlimdə tər - döyüşdə zəfər" idman yarışı başa çatdı. Nəticələr ümumiləşdirildikdən sonra qalib komanda elan edildi. Daha yüksək hazırlıq nümayiş etdirən "Turan" komandası qalib adını qazandı. Komanda üzvlərinin sevinci yerə-göyə sığmırdı. Hamı onları alqışlayıb təbrik edirdi.

Akademik Zərifə Əliyeva adına Liseyin direktoru Mehriban Vəliyeva çıxış edərək qalibləri təbrik etdi, onlara gələcək həyatlarında uğurlar arzuladı.

İkinci və üçüncü yeri tutan komandalara fəxri fərmanlar təqdim olundu. Qalib komandaya isə kubok verildi. Yarışın hazırlanmasında və keçirilməsində yüksək peşəkarlıq nümayiş etdirdiyinə görə çağırışaqədərki hazırlıq fənninin müəllimi Qılman Eyvazov da fəxri fərmanla mükafatlandırıldı.

**Vahid MƏHƏRRƏMOV**

Ordu və cəmiyyət

## Akademik Teymur Bünyadov:

# Xalqımız sizə güvənir

*Rubrikamızın qonağı Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Arxeologiya və Etnoqrafiya İnstitutunun şöbə müdiri, əməkdar elm xadimi, Azərbaycan Respublikası Ağsaqqallar Şurasının sədr müavini, akademik Teymur Bünyadovdur.*



**- Teymur müəllim, söylədiniz ki, Yer kürəsinin yaşı beş milyard ilə yaxındı. Bəs insanlığın tarixi neçə ildi?**

- İnsanlığın tarixi cəmi üç milyon ildir. İnsan təbiətin tacı, yer üzünün əşrəfidi. Ulu insan alidi, adildi, aqildi. Başlanğıcda torpağın nə sahibi, nə sahib çıxanı, nə gözləyəni, nə gözətçisi olub. Artıq insan bu dünyaya göz açdığı vaxtdan da torpaq istəyi, Vətən sevgisi yaranıb. Zaman keçdikcə bu istək, bu arzu daha da güclənib, daha da müqəddəsləşib. İnsan anasını sevdiyi kimi Vətənini də sevib, yolunda çox qurbanlar verib.

**- Vətənmi ilkdir, anamı?**

- Vətən də qədimdir, ana da. İkisi də əzəlidi, əbədidi, qoşa yaranmışlardı.

**- Azərbaycanı qədimdən Odlar yurdu adlandırırlar...**

- Bəli, Azərbaycanın dövrü-qədimdən sinəsindən od parlayıb, ataş saçıb. Əcdadlarımız bu oda, bu işığa pənah gətiriblər, bu inanca sitayiş ediblər. Adlarını oddan alıb, Odlar ölkəsi olublar. Yurdumuz ana Vətən, ana torpaq kimi sevilib. Yanar oddu, sönməz ocaqdı Vətənimiz... Bu torpaq, bu Vətən yolunda nə qədər canlar qurban gedib.

**- Vətən hər şeydən əvvəl insanları ilə, xalqı ilə, milləti ilə Vətəndir. Bir sözlə, torpağı müqəddəsləşdirən, Vətənə çevirən insan amilidir. Bir atalar məsəlimiz var, leksikonumuzda da çox tez-tez işlənir: "Gəzməyə qərib ölkə, ölməyə Vətən yaxşı"...**

- Bu, bir həqiqətdir. Vətənə məhəbbət qürbətdə güclənər. Qürbətdə Vətən daha da şirin olar, Vətənin qoynu üçün darıxarsan, ona can atarsan. Bəli, Vətəndə dünyaya göz açarsan, qürbətdə kor olub yedəkdə qalarsan. Vətəndə nər, qürbətdə qəhər. Vətəndə qohumlu-qardaşlı, qürbətdə gözü yaşlı, qəlbi qubarlı. Vətəndə şahlıq, sultanlıq, qürbətdə qorxaqlıq, boynu büküklük, gözü qıpıqlıq. Vətən candı, qürbət zindandı. Vətən laləzardı, qürbət borandı, qardı. Bu hissi, bu həyəcanı qürbətdə yaşayanlar, anamız Vətən üçün ölənlər bilər...

**- Tarixi sərkərdələrimiz Atropat, Cavanşir, Babək, Şəmsəddin Eldəniz haqqında silsilə elmi məqalələr yazmısınız. Azərbaycan tarixən qəhrəmanlar yurdu, igidlər məskəni olub. Teymur müəllim, arxeoloq, etnoqraf alim kimi əsrlərin sınağından çıxmış bu fikrə necə şərh verərdiniz?**

- Bəli, Azərbaycan cəngavərlər yurdudur. Sayagəlməz igidlərimizin qanı ilə yoğrulub bu torpaq, əməllə dastanlaşıb bu müqəddəslik. Lakin tarixdə onların adları belə məlum deyil. Azərbaycan xalqı dünyanın ən qədim, qəhrəman və mədəni xalqlarından biridir. Bu xalqın yerləşdiyi ərazidə ulu əcdadlarımız 2 milyon il bundan öncə yaşayıb, yaradıb və yadelli işğalçılara qarşı mübarizə apararaq hər zaman qalib gəliblər. Bu torpağın hər daşında, hər qayasında xalqımızın qəhrəmanlıq salnamələri, qəhrəmanlıq abidələri var. Hələ ibtidai icma quruluşu dövründə Azərbaycanda müxtəlif tayfalar, qəbilələr yaşayıb. Bu tayfaların, bu qəbilələrin yaşadığı yerə, yurda bağlılığı olub. Onlar o torpağı, o ərazini qorumaq üçün bütün məhrumiyyətlərə sinə gərərək oxla, yayla, qayadan qopan daşla, qalxanla, qılıncla öz torpaqlarını müdafiə ediblər. Hələ eramızdan əvvəl IV əsrdə Makedoniyalı İskəndər Hindistana səfəri zamanı kiçik Midiya torpağından keçəndə sərkərdə Atropatla görüşür. Atropat uzaqgörən, ağıllı, hədsiz hərbi təfəkkürə malik qəhrəman olub. Bütün bunların fövqündə dayanan məqam isə onun xalqını, torpağını sevən bir sərkərdə olması idi. Midiya hökmdarı, sərkərdə Atropat Makedoniyalı İskəndərlə danışıqlar aparır. Dünyanı fəth edən İskəndər Midiya torpaqlarına toxunmadan Hindistana səfər etdi. Hətta onun şərəfinə təşkil olunmuş ziyafətdə böyük hökmdar Midiya geyimində göründü. Tarixdə baş vermiş belə məqamlar bizə onu deməyə əsas verir ki, deməli, dövləti və onun ərazisini tək qılıncın, qalxanın gücü ilə deyil, ağlın gücü ilə də müdafiə edib qələbə qazanmaq olar.

**- Tarixən Azərbaycan qadınları da kişilərdən geri qalmayıb, yadelli işğalçılara qarşı döyüşlərdə qəhrəmanlıqlar göstərərək ad-san qazanıblar.**

- Əlbəttə. Hələ eradan əvvəl I əsrdə biz romalılara qarşı mübarizə aparanda kişilərlə bərabər qadınlar da at belində, zirehli geyimdə, qılınc və qalxanla döyüş meydanında düşmənə qarşı amansızlıqla vuruşublar. Ona görə də həmin dövrdəki qadınları əfsanəvi qadınlar adlandırırlar. Hətta qədim yunan tarixçisi Plutarx deyirdi ki, alban qadınları ərlərindən də çox cəsarətlidirlər.

**- Çox zəngin tədqiqatlarınızda böyük hökmdar və sərkərdə Cavanşirə xüsusi yer ayırmısınız.**

- Tamamilə doğrudur, xalqımızın dövlətçilik tarixində böyük hökmdar Cavanşirin öz yeri var. VII əsrdə alban hökmdarı Cavanşir yadelli işğalçılara qarşı mübarizə aparıb. Ərəblərə, farslara, xəzərlərə qarşı döyüşüb. O təkcə hökmdar yox, həm də baş sərkərdə - ordu sərdarı idi. Dövlətçilik tariximizdə ən qüdrətli hökmdarlardan sayılan Cavanşirin diplomatik bacarığa malik olması barədə söylənilən fikirlər də bu günümüzə gəlib çatıb. Bir maraqlı fakt deyim. Böyük hökmdar Cavanşir Xəzər xaqanının qızı ilə evlənir. Və bununla da onlar nə qədər qızıl, mal-dövlət aparmışdılarsa, hamısını geri qaytarır. Cavanşir xalqımızın qəhrəmanlıq tarixinin zirvəsidir. Eyni zamanda ondan sonra Azərbaycan xalqının Babək, Şəmsəddin Eldəniz, Şah İsmayıl Xətai kimi sərkərdələri qəhrəmanlığın bütün nişanələrini özlərində yaşadıblar.

**- XX əsrdə xalqımızın böyük oğlu, əvəzolunmaz siyasi xadim, ümummilli lider Heydər Əliyev sərkərdəlik tariximizdə yeni və şanlı səhifə yaratdı. Artıq 15 iyun - Milli Qurtuluş tariximizdən, Ulu Öndərin Azərbaycanı xilas etməsindən 24 il ötür...**

- 1993-cü ilin 15 iyununda ulu öndər Heydər Əliyev yenicə müstəqillini qazanmış Azərbaycanı parçalanmaqdan xilas etdi. Dövlət və ordu quruculuğuna xüsusi diqqət yetirdi. Bu sahələrin inkişafına dair sərəncamlar, qərarlar imzaladı. Həm dövlət rəhbəri, həm də Ali Baş Komandan kimi orduda mütəşəkkillik, vahid komandanlıq yaratdı, nizam-intizamı möhkəmləndirdi. Beləliklə, ümummilli lider Heydər Əliyev müasir ordu quruculuğunun bünövrəsini qoydu. Bu gün Ulu Öndərin yaratdığı müasir Azərbaycan Ordusu onun layiqli davamçısı, Prezident, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən daha sürətlə inkişaf edir, dünyanın ən güclü orduları sırasında yer alır.

**- Ötən il oktyabrın 27-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov respublikamızın bir qrup tanınmış şair və yazıçısı, elm xadimi, ziyalı nümayəndələri ilə görüş keçirdi. Teymur müəllim, siz də həmin nümayəndə heyətinin tərkibində idiniz. Bu görüş hansı təəssüratlarla yadınızda qalıb?**

- Bu gün orduda yüksəliş var. Bizim fərəhimiz, fəxrimiz əsgərlərimiz, zabitlərimizdi. Ali Baş Komandanımız, xalqımız onlara güvənir. Axı əsgər və zabitlərimiz bu torpağın qəhrəman müdafiəçiləridir. Erməni işğalçıları tərəfindən zəbt olunmuş tarixi torpaqlarımızı Ali Baş Komandanımızın rəhbərliyi altında onlar azad edəcəklər.

Cənab nazirlə görüşümüz çox yadda qalan bir görüş oldu. Həm də deyərdim ki, görüşümüz olduqca maraqlı və səmimi keçdi. Üç saata yaxın keçirilən bu görüşdə əhəmiyyətli söhbətlər aparıldı. Görüşdə Prezident cənab İlham Əliyevin ordumuza göstərdiyi diqqət və qayğıdan ətraflı danışıldı. Bu gün Silahlı Qüvvələrimizin daim, durmadan artan gücündən maraqlı faktlar söylənildi. Keçən ilin aprelində ordumuzun keçirdiyi əks-həmlə əməliyyatlarında qazanılan qələbə xalqımızı sevindirdi. Bu görüşdə biz bir daha əmin olduq ki, ordumuz Ali Baş Komandanın göstəriş və tapşırıqlarını yüksək səviyyədə yerinə yetirir, bircə əmrlə işğalda olan torpaqlarımızı azad etməyə hər an hazırdır.

**- Aprel döyüşləri tariximizdə yeni qəhrəmanlıq səhifələri açdı. XXI əsrdə şanlı ordumuz Azərbaycan tarixinə yeni zəfər səhifələri yazdı...**

- Bilirsiniz, ən əvvəl aprel döyüşləri düşmənə və onun havadarlarına göstərdi ki, Azərbaycan xalqı torpağına, Vətəninə bağlıdır. Ondan bir qarış belə kimsəyə vermək haqqında düşünmür. Torpağı, Vətəni uğrunda döyüşməyə, canından, qanından keçib şəhid olmağa hazırdır. Ermənilər bu gün işğal etdikləri Azərbaycan torpaqlarında təşviş içərisində, qorxu altında yaşayırlar. Onlar burada müvəqqəti olduqlarını, nəhayət ki, başa düşüb qaldıqları əraziləri tərk etməyə başlayıblar. Bu gün Prezidentimizin sərəncamı ilə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində quruculuq, yenidənqurma və bərpa işləri aparılır. Bütün bunlar illərdir torpaqlarımızı işğal altında saxlayan ermənilərə güclü bir mesajdır.

Dövlət başçımız ən yüksək kürsülərdən Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin vacibliyini dəfələrlə vurğulasa da, müharibənin də qaçılmaz olduğunu bəyan edir. Azərbaycan Prezidenti, Azərbaycan xalqı heç zaman imkan verməyəcək ki, ərazisində ikinci bir erməni dövləti yaransın.

**- Teymur müəllim, 31 may 2002-ci ildə keçirilən "Şuşa Azərbaycanın mədəniyyət və tarix incisidir" adlı elmi konfransda çıxışınız olub. Bu il Şuşanın işğalının 25 ili də tamam oldu...**

- Bəli, "Şuşanın dağları başı dumanlı..." adlı geniş məruzə ilə həmin konfransda çıxış etdim.

Qeyd edim ki, Şuşa təkcə cənnət məkanı olmayıb, həm də hərbi strateji əhəmiyyət kəsb edən bir basılmaz qala olub. Şuşa dağdan arana açılan pəncərə, aydınlıq, işıqlıq paylayan ucalıqdı. Düşmənlərə, yadellilərə göz dağıydı. Ona görə də 1750-ci ildə Qarabağ xanı Pənahəli Xan Cavanşir tərəfindən Şuşanın şəhər kimi əsası qoyuldu. Pənahabad kimi tarixə düşdü. Şəhərin ətrafına uca və alınmaz müdafiə səddi çəkildi. Beləliklə, Şuşa qalası alınmaz, basılmaz oldu. 1992-ci ilə kimi...

**- Sonda bir ənənəvi sualımız var. Azərbaycan Ordusunun əsgər və zabitlərinə ürək sözləriniz, arzu və istəkləriniz...**

- Sizinlə fəxr edib qürur duyuram. Özümü həmişə sizin yanınızda hiss etmişəm. Yaşımın bu ixtiyar çağında da cəbhəyə getməyə hazıram. Sizə cansağlığı, hünərli, cəsarətli olmağı arzulayıram. Düşmənə qarşı amansız, barışmaz olun. Siz xalqın dayağısınız. Xalq sizə güvənir.

**- Müsahibəyə görə çox sağ olun.**

**Söhbəti apardı:
Lalə HÜSEYNOVA,
"Azərbaycan Ordusu"**

# Bakıda “Dəniz kuboku - 2017” müsabiqəsinin planlaşdırma konfransı keçirilib

*Bakıda Azərbaycan, Rusiya və Qazaxıstan Hərbi Dəniz Qüvvələri nümayəndə heyətlərinin iştirakı ilə cari ilin avqust ayında ölkəmizin Xəzər dənizindəki ərazi sularında keçirilməsi nəzərdə tutulan "Dəniz kuboku - 2017" beynəlxalq müsabiqəsinin planlaşdırma konfransı keçirilib.*



Konfrans zamanı müsabiqənin keçirilmə qaydaları, təhlükəsizlik məsələləri, həmçinin yarışlar zamanı təşkil olunacaq mədəni-ictimai tədbirlər müzakirə edilib. Sonra konfrans iştirakçıları tərəfindən müsabiqənin keçiriləcəyi təlim-tədris kompleksinə baxış keçirilib.

Sonda konfransın yekun protokolu imzalanıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti,**
**foto**
**Natiq İSAYEVİNDİR**

*18 İyun - İnsan Hüquqları Günüdür*

# Azərbaycanda insan hüquqlarının təmin edilməsi dövlətin ali məqsədidir

*Azərbaycan Prezidenti İlham Əliyevin 18 iyun 2007-ci il tarixli sərəncamı ilə hər il iyunun 18-i ölkəmizdə İnsan Hüquqları Günü kimi qeyd olunur. Həmin sərəncamın imzalanmasından artıq 10 il keçir. Ombudsman Aparatının mətbuat xidmətindən verilən məlumata görə, əlamətdar tarixlə əlaqədar Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili Elmira Süleymanovanın təşəbbüsü ilə ənənəvi olaraq mayın 18-dən iyunun 18-dək respublikamızda İnsan hüquqları aylığı keçirilir. Aylığın məqsədi insan hüquqları sahəsində ötən dövrdə əldə edilmiş nailiyyətləri, habelə mövcud problemlərin həlli yollarını müəyyənləşdirməkdir.*

Hüquqi, demokratik və vətəndaş cəmiyyətli dövlət quruculuğunda inamlı və qətiyyətli addımları atan müstəqil Azərbaycan Respublikası 18 oktyabr 1991-ci ildə qəbul etdiyi "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"ndan irəli gələn müddəalar 1995-ci ildə ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə qəbul olunmuş, insan hüquqlarının və azadlıqlarının təmin edilməsini dövlətin ali məqsədi kimi bəyan edən ilk milli Konstitusiyamızın da başlıca qayəsini təşkil etdi.

Konstitusiyanın qəbul olunması siyasi sistemin müasirləşdirilməsi və demokratik institutların formalaşdırılması üçün zəmin yaratdı. Müxtəlif illərdə referendum yolu ilə Konstitusiyaya bir sıra mühüm əlavə və dəyişikliklərin edilməsi insan və vətəndaş hüquqlarının və azadlıqlarının qorunmasına, vətəndaşların həyat səviyyəsinin təmin edilməsinə, demokratiyanın genişlənməsinə və inkişafına yönəlmişdir.

Yeni Konstitusiyamızın üçdəbir hissəsi insan hüquq və azadlıqlarına, onların təminatına həsr edilib.

Konstitusiyamızın 26-cı maddəsinə əsasən, hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquq və azadlıqlarını müdafiə etmək hüququ vardır.

Dövlət hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verir. İstisnasız olaraq hakimiyyətin bütün



qollarına şamil edilən bu öhdəlik insan və vətəndaş hüquq və azadlıqlarına hörmət etmək, onları müdafiə etmək, dəstəkləmək, eləcə də həyata keçirmək vəzifələrini ehtiva edir.

Azərbaycan Respublikasının insan hüquqları haqqında beynəlxalq sazişlərə qoşulması, bu sahədə elmi-tədqiqat institutunun yaradılması, normativ-hüquqi aktlarının insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, hüquqi mexanizmlərin təkmilləşdirilməsi, insan hüquqları sahəsində fəaliyyət göstərən qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi, bu sahədə fəaliyyət göstərən beynəlxalq institut və mərkəzlərdə tədqiqat və təhsil problemləri üzrə mütəxəssislərin hazırlanması, insan hüquqları haqqında öhdəliklərə riayət edilməsi və digər məsələlər ölkəmizdə insan hüquqlarına verilən dəyərin əsas göstəricisidir.

Yeni əsrin ilk illərindən Azərbaycan dövləti tərəfindən insan hüquqlarının qorunması, hüquq və azadlıqların təmin olunması sahəsində ardıcıl tədbirlər həyata keçirildi. Avropa Şurasına üzv qəbul olunduqdan sonra Azərbaycan "İnsan hüquqlarının müdafiəsi haqqında Avropa Konvensiyasına" qoşuldu. Bu zaman o, öz üzərinə milli qanunvericiliyin beynəlxalq Avropa standartlarına uyğun təkmilləşdirilməsi öhdəliyini götürdü. Bu istiqamətdə atılan addımlardan ən mühümü Ombudsman təsisatının yaradılması idi. 2001-ci il dekabrın 28-də Milli Məclis tərəfindən "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili haqqında" Azərbaycan Respublikasının Konstitusiya qanunu qəbul olundu.

Məlum olduğu kimi, demokratik, hüquqi dövlətin, qanunun aliliyi, insan hüquqları və sosial ədalət kimi fundamental əsaslarının möhkəmləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 27 dekabr 2011-ci il tarixdə "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" qəbul olunub. İnsan hüquqları aylığı çərçivəsində “Milli Fəaliyyət Proqramı”nın müddəalarına əsaslanmaqla, ölkəmizin bütün regionlarında dövlət qurumları, QHT və KİV-lər, beynəlxalq təşkilatlar, icmalar tərəfindən insan hüquqlarının effektiv müdafiəsinə yeni mərhələ açan, əhalinin müxtəlif qruplarını əhatə etməklə insan hüquqlarını təbliğ edən mövzularda müxtəlif maarifləndirmə tədbirləri və müzakirələr təşkil olunur.

Milli Fəaliyyət Proqramında əhalinin müxtəlif, o cümlədən həssas qruplarına aid olan şəxslərin - qaçqın və məcburi köçkünlər, məhkumlar, hərbi qulluqçular, qadınlar, uşaqlar, ahıllar, əlillər və başqalarının hüquqlarının təmin edilməsində səmərəliliyin artırılması məqsədilə fəaliyyət istiqamətləri müəyyən olunur. Və bu baxımdan yoxsulluğun azaldılması, məşğulluğun təmin olunması, qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması, ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi və digər sahələrdə artıq qəbul olunmuş müvafiq xüsusi dövlət proqramlarının icrasına “Milli Fəaliyyət Proqramı” kontekstindən yanaşılmalıdır.

Danılmaz həqiqətdir ki, dövlət orqanlarının səmərəli fəaliyyəti, qarşıda duran vəzifələrin və funksiyaların uğurla yerinə yetirilməsi, ilk növbədə yüksək ixtisaslı, müasir dünyagörüşünə malik, ədalətli, prinsipial və bacarıqlı kadrların sayəsində mümkündür. Dövlət məmurları insan hüquqlarının səmərəli və etibarlı təmin olunması kimi ümumdövlət maraqlarını rəhbər tutmağa borcludurlar.

Beləliklə, tam əsasla vurğulaya bilərik ki, "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" Ulu Öndərimiz tərəfindən təməli qoyulmuş insan hüquqları sahəsində strategiyanın məntiqi davamı və dövlətin növbəti siyasi iradəsi olmaqla, insan və vətəndaş hüquqlarının hərtərəfli həyata keçirilməsinə, onların icra mexanizmlərinin təkmilləşdirilməsinə zəmanət verir.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Şimali Koreya tərəfindən buraxılan raketlər Yaponiyaya təhlükə yaratmayıb



İyunun 8-də səhər saatlarında Şimali Koreya tərəfindən buraxılan raketlər Yaponiyaya təhlükə yaratmayıb. Bu barədə xarici işlər naziri Fumio Kişida məlumat verib.

F.Kişida deyib: "Yaxın zamanlarda Yaponiya üçün təhlükə yarada biləcək heç nə qeydə alınmayıb. Lakin belə təxribatçı hərəkətlər yolverilməzdir".

Nazir Tokionun Şimali Koreyanın raket buraxılışlarına qarşı ABŞ-ın Koreya Respublikası ilə əlbir çalışdığını bir daha təsdiq edib.

Həmin gün buraxılan raketlərin gəmilərə qarşı qanadlı raketlər olduğu bildirilir. Təqribən 200 kilometr məsafə qət edən bu raketlər, Yaponiyaya məxsus iqtisadi zonadan kənarda dənizə düşüb.

## Somalidə hərbi bazaya silahlı hücumda 70-ə yaxın əsgər öldürülüb



Somalidə hərbi bazaya hücumda 70-ə yaxın əsgər öldürülüb.

Yüksək rütbəli hərbçi Ahmed Mohamed "Aş-Şabab" terror qruplaşmasının silahlılarının Somalinin şimal-şərqindəki Puntland bölgəsində Af-Urur hərbi bazasına partladıcı və ağır silahlarla hücum etdiyini bildirib. O, ilkin məlumatlara görə, 70-ə yaxın əsgərin öldüyünü, onlarla hərbçinin isə yaralandığını vurğulayıb.

Somali ordusu silahlı qruplaşmanı geri çəkilməyə məcbur edib.

"Aş-Şabab"ın yaydığı açıqlamada 61 Somali əsgərinin öldürüldüyü, orduya aid çox sayda hərbi avtomobil və silah-sursatın ələ keçirildiyi bildirilib.

## ABŞ-a məxsus hərbi təyyarə Yaponiyada qəza enişi edib



Yaponiyada ABŞ-a məxsus FA-18 qırıcı-bombardmançı təyyarə qəza enişi edib. Bu barədə Yaponiya Müdafiə Nazirliyi məlumat yayıb.

Məlumatda bildirilir ki, Yaponiyanın Yamaqucі prefekturasındakı İvakuni hərbi bazasının qeydiyyatında olan təyyarə özünümüdafiə qüvvələrinin Matsuşima bazasında məcburi eniş edib. Qəza enişinə səbəb kimi mühərrikdəki nasazlıq göstərilir.

Təyyarənin enişi zamanı heç kim xəsarət almayıb. Hadisənin başvermə səbəbləri araşdırılır.

## BMT: hazırda İŞİD-in 20 minədək üzvü var



Hazırda İŞİD terror qruplaşmasının 20 min nəfərədək üzvü qalıb.

Bu fakt BMT baş katibinin bu qruplaşmanın sülh və təhlükəsizliyə yaratdığı təhdid barədə cümə axşamı günü qurumun Təhlükəsizlik Şurasına təqdim etdiyi məruzədə əksini tapıb.

Sənəddə deyilir: "Son 16 ayda İŞİD döyüşçülərinin sayı xeyli azalıb və hazırda 12 mindən 20 min nəfərədək təşkil edir. Eyni zamanda, İraq və Suriyaya digər regionlardan xarici yaraqlı-terrorçular axını azalıb. Lakin indi beynəlxalq təhlükəsizliyə əsas təhdid yaraqlıların öz ölkələrinə qayıtması və onların münaqişə zonalarından başqa regionlara yer dəyişməsidir".

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

# Vətən övladlarına xidmət əvəzsizdir

*Son illər ordu quruculuğu sahəsində atılan uğurlu addımlar bütün sahələri əhatə edir. Hərbi qulluqçuların sosial məişət şəraitinin yaxşılaşdırılmasına göstərilən diqqət, qayğı böyük rəğbətlə qarşılanır. Əsgər valideynləri, ictimaiyyət nümayəndələri hərbi hissələrdə olur, ordu həyatı ilə yaxından tanış olurlar. Dəfələrlə müşahidə etmişik ki, hərbi hissəyə gələnlər yaradılan hərtərəfli şəraitə görə ölkə və ordu rəhbərliyinə minnətdarlıq edirlər. Dünya görmüş Səfər kişi də hərbçi olub. O, keçmiş İttifaq Ordusu sıralarında xidmət edib. Keçmiş hərbçi deyir:*



Silahlı Qüvvələrimizin inkişaf etdirilməsinə dövlət başçısı tərəfindən göstərilən diqqət və qayğı, həyata keçirilən məqsədyönlü tədbirlər cəmiyyətimiz tərəfindən ruh yüksəkliyi ilə qarşılanır. Müstəqilliyimizin ilk illəri ilə müqayisədə Silahlı Qüvvələrimiz qüdrətli inkişaf yolu keçib. Ordumuz ən müasir ordular sırasındadır. Hərbi qulluqçuların sosial məişət şəraiti gündən-günə yaxşılaşdırılır. Yeni hərbi şəhərciklər, yaşayış kompleksləri istifadəyə verilir və bu istiqamətdə işlər uğurla davam etdirilir. Yaşadığım cəbhə bölgəsində də əsgər və zabitlərimiz üçün şərait yaradılıb. Buna görə də hər bir kəs çalışır ki, Vətən qarşısında vətəndaşlıq borcunu yüksək məsuliyyətlə yerinə yetirsin. İgid Vətən oğullarının qəhrəmanlıqları sayəsində torpaqlarımız mətinliklə qorunur. Vətən müdafiəçilərinin əvəzsiz xidmətləri bizi hədsiz sevindirir. Qürur hissi keçiririk ki, Vətənimizin qəhrəman övladlarının layiqli davamçıları var.

Zabit Şamxal Abışovla əsgərlərə yaradılan şəraitlə tanış olmaq üçün qərargaha gəlirik. Yaradılan nizam-intizam diqqəti cəlb edir. Əsgərlər gün cədvəlinə uyğun olaraq xidmət aparırlar. Yataqxanada onlar üçün hər cür şərait yaradılıb.

Yeməkxanada milli, dadlı yeməklər hazırlanır. Bütün işlər mülki vətəndaşlar tərəfindən həyata keçirilir. Bibinisə Rüstəmova təcrübəli, diqqətli baş aşpazdır. Yeməklərin hazırlanmasına xüsusi fikir verir. O deyir:

- Bir ana kimi qürurluyam ki, Vətən keşiyində dayanan övladlarımıza xidmət edirik. Əsas məqsədimiz onları dadlı və ləzzətli yeməklərlə təmin etməkdir. Buna görə hər cür ərzaq təminatımız var.





Aşpaz köməkçisi Mahirə Həsənova, zal işçiləri Bakina Raxima, Kəmalə Sadıqova, Laçın Abbasova, Təranə Həsənova və başqaları da işlərinin öhdəsindən bacarıqla gəlirlər. Aşpaz köməkçisi Mahirə Həsənova ürək sözlərini belə ifadə edir:

- Əsgərləri öz övladlarımız kimi sevirik. Onlar təkcə ataanalarının yox, Vətənimizin övladlarıdırlar. Həmişə ana Vətən deyilib. Ananı sevmək, Vətəni sevmək deməkdir, Vətən sevgisi tükənməzdir. Əsgər balalarımız bu ruhda böyüyüblər. Biz də öhdəmizə düşən işləri ana sevgisiylə görürük və yaxşı bilirik ki, bu sevgi əsgərlərimizi daha da ruhlandırır.

Vətən müdafiəçilərinə xidmət göstərənlərdən ayrılırıq. Onların da zəhmətləri həmişə yüksək qiymətləndirilir. Çünki onlar layiqli Vətən müdafiəçilərinə xidmət göstərirlər.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

*Hərbi ənənələr, yeniliklər*

# "Peçeneq"i əvəz edəcək pulemyot

Rusiya silah istehsalçıları kəşfiyyatçılar, xüsusi təyinatlılar üçün yeni müasir pulemyot hazırlayıblar. Onun ölçüləri AK-74 Kalaşnikov avtomatına uyğundur, atəş sürətinə və yüksək dəqiqliyinə görə isə hazırda silahlanmada olan "Peçeneq" pulemyotundan üstün olacaq. Yeni silahla hərbi qulluqçular nəinki paraşütdən tullana biləcək, həmçinin küçə döyüşləri aparacaq və çətin dağlıq şəraitdə rahat hərəkət edə biləcəklər.

Yeni silah hazırda kəşfiyyatçıların, xüsusi təyinatlıların və dağ atıcılarının silahlanmasında "Peçeneq"i əvəz edəcək. Bu haqda hərbi idarənin nümayəndəsi məlumat verib. Onun bildirdiyinə görə, silahın bir neçə növü istehsal ediləcək. Pulemyotda 7,62 və 5,45 mm güllələrindən istifadə olunacaq və onun lüləsinin uzunluğu müxtəlif ölçülərdə olacaq.



7,62 mm-lik pulemyotdan dağ və meşə ərazilərində, 5,45 mm-likdən isə yaşayış məntəqələrində və düzənlik ərazilərdə istifadə olunması yararlı hesab edilir. Lüləsi qısa olan pulemyotdan hücum əməliyyatlarında, uzun lüləli silahdan isə uzaq məsafədə yerləşən hədəfləri məhv etmək üçün istifadə ediləcək.

Pulemyotun çəkisi 7 kiloqram, tezatma qabiliyyəti dəqiqədə 1000 atışdır. Silahın dəstəyi pulemyotun ön hissəsində quraşdırılacaq və bu da dayaq olmadan dəqiq atəş açmağa imkan verəcək. Silah qatlanan qundaqla təchiz olunacaq. Döyüşçü paraşütdən tullanarkən, binalara hücum edərkən, yüksək dağ yollarına qalxarkən bu ona daha faydalı olacaq.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# ABŞ Konqresinin üzvü 28 May - Respublika Günü ilə bağlı bəyanat verib

*ABŞ Konqresinin Nümayəndələr Palatasının demokrat üzvü, Nyu-Cersi ştatını təmsil edən Donald Peyn Azərbaycanın milli bayramı - Respublika Gününün 99-cu ildönümü münasibətilə bəyanatla çıxış edib.*

Konqres üzvü bəyanatında Azərbaycanın 1918-ci ildə dünyada ilk demokratik və dünyəvi müsəlman dövləti qurduğunu, lakin müstəqilliyinin qısa sürdüyünü vurğulayıb. Buna baxmayaraq, Sovet İttifaqının əsarətindən qurtulan Azərbaycanın 1991-ci ildə müstəqilliyini bərpa etdiyini bildirib.

D.Peyn ABŞ-ın müttəfiqi olan Azərbaycana Birləşmiş Ştatlar və NATO qüvvələrinə göstərdiyi mühüm dəstəyə, Azərbaycan hərbçilərinin Əfqanıstanda ABŞ əsgərləri ilə çiyin-çiyinə vuruşduğuna, habelə Kosovo və İraqdakı əməliyyatlara verdiyi töhfələrə görə ölkəsinin minnətdarlığını ifadə edib.

Bəyanatda müsəlman ölkəsi olan Azərbaycanın 1990-cı illərdən etibarən İsraillə sıx əlaqələr qurduğu, ölkəmizin yəhudi icmasının evi olduğu və tolerant cəmiyyətimizdə dini azadlığın və plüralizmin təmin edildiyi vurğulanıb.

Sonda BMT, NATO və ATƏT-in üzvü kimi Azərbaycan beynəlxalq ictimaiyyətdəki roluna görə təqdir edilib və ölkəmizin strateji cəhətdən mühüm və mürəkkəb regionda ABŞ-ın güclü tərəfdaşı olduğu vurğulanıb.

**AZƏRTAC**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Məmmədov Ramiz Firudin oğluna 2016-cı ildə verilmiş vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
kapitan
Məhəmməd ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 259
Nüsxə 4650